BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaInject®-155 DW

Tək Komponentli, Poliüretan Əsaslı, Elastik İnyeksiya Köpüyü

## TƏSVİR

SikaInject®-155 DW, rütubət və ya su ilə təmasda reaksiyaya girən, həlledicisiz, 1 komponentli poliuretan köpükdür. Sistem qətran və sürətləndiricidən (katalizator, CAT) ibarətdir. SikaInject®-155 DW, EN 1504-5 tələblərinə cavab verir, beton dərzlərinin və çatların sızdırmazlığına qarşı içməli su ilə təmas sertifikatlı inyeksiya məhluludur.

## İSTİFADƏ YERLƏRİ

SikaInject®-155 DW yalnız təcrübəli peşəkarlar tərəfindən istifadə olunmalıdır.

- Yeraltı strukturlarda kiçik və orta həcimli su nüfuzuna qarşı
- Boşluqlara su dolmasına qarşı doldurulmasında
- Çatların və dərzlərin qalıcı sızdırmazlığında

## ÜSTÜNLÜKLƏRİ

- Ətrafdakı nəm və su ilə reaksiyaya girməsi
- Nəmli səthlərə yüksək yapışma
- Əsnək köpük əmələ gətirir
- EN 1504-5, System 4, U(S1) W(5) (2/3/4) (5/40) tələblərini qarşılayır

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Poliüretan |
| **Qablaşdırma** | 25 kg (qətran), 2.5 kg (sürətləndirici) |
| **Rəng** | Sarımtıl (əsas qatran), sarımtıl şəffaf (sürətləndirici) |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 24 ay. |
| **Saxlama Şərtləri** | Məhsul, açılmamış, zədələnməmiş, bağlı qablaşdırmasında, quru şəraitdə, +10 °C və +25 °C temperatur aralığında saxlanılmalıdır. |
| **Sıxlığı** | 1.16 kg/L (Əsas qatran),  0.98 kg/L (sürətləndirici maye) |
| **Özlülük** | 700 mPa.s (Əsas qatran), 320 mPa.s (sürətləndirici maye) |

## TEXNİKİ MƏLUMATLAR

| | |
|---|---|
| **Genişlənmə** | Həcminin 20-30 qatı (10% sürətləndirici ilə) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Ətraf mühit temperaturu** | Min. +5 °C / Maks. +35 °C |
| **Səthin temperaturu** | Min. +5 °C / Maks. +35 °C |
| **Reaksiya vaxtı** | Reaksiya müddəti, məhsulun, inyeksiya olunan mühitin temperaturundan və sürətləndirici mayenin dozasından asılıdır. Tələb olunan reaksiya müddətinin alınması üçün öncədən sınaq edilməlidir.<br>SikaInject-155 DW / kat. , 10% su həcmi və 10 % Sürətləndirici ilə : |

| Temperatur (°C) | +5ºC | +10ºC | +15ºC | +20ºC |
|---|---|---|---|---|
| Reaksiyanın başlaması (san.) | 130 | 65 | 30 | 15 |
| Reaksiyanın Bitməsi (san.) | 350 | 250 | 120 | 60 |
| Sərbəst Köpüklənmə faktoru | 20 | 25 | 25 | 30 |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### QARIŞDIRMA

- Sürətləndirici mayeni SikaInject®-155 DW`ə əlavə edin. Tələb olunan reaksiya müddətinə bağlı olaraq 10% qədər.
- Sürətli və tam qarışmanı təmin edin.
- 1 Komponentli İnyeksiya avadanlığı ilə inyeksiya edilir.
- Sərbəst su və mühitin nəmliyi reaksiyanı başladır.
- Quru mühitə dolğu tətbiqi üçün inyeksiya sahəsinə su verilməlidir.

### AVADANLIQ TƏMİZLİYİ

İnyeksiya prosesi zamanı qısa fasilələrdə tıxanmaların qarşısını almaq üçün nasos və şlanqlar sürətləndirici əlavə olunmamış qatran ilə doldurulmalıdır.

İnyeksiya prosesi bitdikdən sonra SikaInject®-CL2 kimi nasos təmizləyici maddəni və ya susuz hidravlik yağı nasos və şlanqlardan keçirin ki, SikaInject®-155 DW tamamilə yuyulub təmizlənsin. Nasosu və şlanqları təmizləyici maddə və ya yağ ilə doldurulmuş vəziyyətdə saxlayın və bütün açıq hissələri möhürləyin.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12